**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№340/1** **15 fevral 2022-ci il**

**Haqsız rəqabətin aradan qaldırılması haqqında**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.2.1-ci "Haqsız rəqabətin aradan qaldırılması haqqında metodik vəsaitlərin təkmilləşdirilməsi" bəndinin icrası ilə əlaqədar auditor fəaliyyəti sahəsində haqsız rəqabətin aradan qaldırılması istiqamətində Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavdov) tərəfindən hazırlanmış təklifləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor fəaliyyəti sahəsində haqsız rəqabətin aradan qaldırılması istiqamətində təkliflər nəzərə alınsın (əlavə olunur).
2. Haqsız rəqabətin aradan qaldırılması, auditor fəaliyyətində səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, dempinq hallarının aradan qaldırılması, müstəqil auditə ictimai etimadın yüksəldilməsi və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə 2022-ci il "Auditor fəaliyyəti sahəsində haqsız rəqabətə qarşı mübarizə" ili elan edilsin.
3. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, iki həftə müddətində Şura üzvləri tərəfindən göstərilən irad və təkliflər nəzərə alınmaqla və haqsız rəqabətə qarşı mübarizə üzrə xarici təcrübədən istifadə edilməklə auditor fəaliyyəti sahəsində haqsız rəqabətin aradan qaldırılmasına dair Tədbirlər Planı hazırlanıb təqdim edilsin.
4. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**